№79 2026

**Annali d'Italia**

ISSN 3572-2436

*Annali d'Italia (Italy's scientific journal) is a peer-reviewed European journal covering top themes and problems in various fields of science.*

*The journal offers authors the opportunity to make their research accessible to everyone, opening their work to a wider audience.*

**Chief editor:** Cecilia Di Giovanni

**Managing editor:** Giorgio Bini

- Hoch Andreas MD, Ph.D, Professor Department of Operative Surgery and Clinical Anatomy (Munich, Germany)
- Nelson Barnard Ph.D (Historical Sciences), Professor (Malmö, Sweden)
- Roberto Lucia Ph.D (Biological Sciences), Department Molecular Biology and Biotechnology (Florence, Italy)
- Havlíčková Tereza Ph.D (Technical Science), Professor, Faculty of Mechatronics and Interdisciplinary Engineering Studies (Liberec, Czech Republic)
- Testa Vito Ph.D, Professor, Department of Physical and Mathematical management methods (Rome, Italy)
- Koshelev Andrey Candidate of Philological Sciences, Associate Professor, Faculty of Philology and Journalism (Kiev, Ukraine)
- Nikonov Petr Doctor of Law, Professor, Department of Criminal Law (Moscow, Russia)
- Bonnet Nathalie Ph.D (Pedagogical Sciences), Faculty of Education and Psychology (Lille, France)
- Rubio David Ph.D, Professor, Department of Philosophy and History (Barselona, Spain)
- Dziedzic Stanisław Ph.D, Professor, Faculty of Social Sciences (Warsaw, Poland)
- Hauer Bertold Ph.D (Economics), Professor, Department of Economics (Salzburg, Austria)
- Szczepańska Janina Ph.D, Department of Chemistry (Wrocław, Poland)
- Fomichev Vladimir Candidate of Pharmaceutical Sciences, Department of Clinical Pharmacy and Clinical Pharmacology (Vinnytsia, Ukraine)
- Tkachenko Oleg Doctor of Psychology, Associate Professor (Kiev, Ukraine)

and other experts

500 copies
Annali d'Italia
50134, Via Carlo Pisacane, 10, Florence, Italy
email: info@anditalia.com
site: https://www.anditalia.com/

# CONTENT


## ARTS

***Salyha P.***
POTENTIAL OF VIBE CODING DESIGN IN INCREASING DIVERSITY OF UI DESIGN STYLES ................................ 4

## BIOLOGICAL SCIENCES

***Yusifova A., Asadova B.***
ANNOTATION ON THE DISTRIBUTION OF PHYTOPATHOGENIC FUNGI IN FODDER PLANTS AND THEIR CHARACTERISTICS ............................................ 9

***Gurbanov E., Aslanova S.***
FLORISTIC DIVERSITY AND STRUCTURAL FEATURES OF SUBALPINE MEADOW VEGETATION (ON THE EXAMPLE OF THE TALYSH REGION ............................ 12

## CHEMICAL SCIENCES

***Seyidova F.F., Mammadova P.E.***
SYNTHESIS AND STUDY OF CADMIUM THIOARSENITE AND THIOARSENATE COMPOUNDS BY HYDROCHEMICAL METHOD ..................................... 18

## ECONOMIC SCIENCES

***Zeynalov H., Mammadov A.***
THE ROLE OF INNOVATION ACTIVITY IN ENHANCING THE COMPETITIVENESS OF TOURISM IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLİC .................. 20

***Panjiyevich J.U.***
COMPREHENSIVE ASSESSMENT OF FACTORS AFFECTING THE EFFECTIVENESS OF TOURISM SERVICES.................................................................... 23

## JURISPRUDENCE

***Genci Gjonçaj***
A CRIMINAL LAW PERSPECTIVE ON MONEY LAUNDERING AS AN INSTRUMENT OF ORGANISED CRIME ........................................................................ 29

***Humbatov M.***
STATION–TYPE PENITENTIARIES IN THE REPUBLIC OF AZERBAIJAN: HISTORY, STATUS AND FUTURE PROSPECTS ................................................................ 41

***Nadia Rusi, Evis Qaja***
INSTITUTIONAL TRANSFORMATION AND COMPLIANCE WITH EUROPEAN UNION REQUIREMENTS: ALBANIA'S PATHWAY TO EU ACCESSION ................................................................ 49

## MATHEMATICAL SCIENCES

***Argynbayeva B., Amirkhan Sh., Bazarbayeva L.***
SEASONALITY AND TREND IN SALES FORECASTING .. 59

***Sadygov M.A.***
ON NONSMOOTH PROBLEMS OF MATHEMATICAL PROGRAMMING ....................................................... 67

## MEDICAL SCIENCES

***Boltik I., Jenish V., G., Vdovichenko V.P.***
USE OF ANTIHYPERTENSIVE DRUGS AMONG MEDICAL UNIVERSITY STUDENTS: A CROSS-SECTIONAL STUDY .................................................................................. 89

## PEDAGOGICAL SCIENCES

***Balasanian O***
THE FACILITATIVE ASPECT OF DEVELOPING STUDENTS' STRATEGIC COMPETENCE IN ORAL PROFESSIONAL COMMUNICATION WITHIN DISTANCE FOREIGN LANGUAGE LEARNING ............................... 94

***Orujov Y.A., Nagiyev K.J., Abishov N.A.***
APPLICATION OF THE PROBLEM-BASED LEARNING METHOD IN TEACHING AMINO ACIDS WITHIN A BILINGUAL LEARNING CONTEXT............................. 100

# PHILOLOGICAL SCIENCES

***Shintemirova A.***
SPACE AND TIME IN THE WORKS OF I. A. BUNIN "MANY WATERS" AND "CURSED DAYS"..................107

# PHILOSOPHICAL SCIENCES

***Makasheva M., Nogaibekova M., Tleubekova A., Turumbetova A.***
FALSIFICATION, CRITICAL RATIONALISM, AND THE GROWTH OF KNOWLEDGE: POPPER'S FRAMEWORK REVISITED THROUGH COMPARATIVE AND APPLIED ................................................................................111

***Dorofeeva T., Pugacheva N.***
ANTHROPOLOGICAL ISSUES IN ISLAM.....................117

***Dorofeeva T., Natalia P.***
ANTHROPOLOGICAL CONCEPTS IN CHRISTIANITY ..121

# PHYSICAL SCIENCES

***Zarbalieva V., Yusubova L., Namazov F., Xalilova A.***
EFFECT OF DOPING BSN CRYSTALS WITH MN, CE AND GD ON ELECTRICAL CONDUCTIVITY ........................125

# SOCIAL SCIENCES

***Karimova F.***
SOCIAL ANALYSIS OF THE TRANSFORMATION OF VALUES IN THE CONTEXT OF GLOBALIZATION........128

# TECHNICAL SCIENCES

***Garbaruk V.Yu., Goldade V.A.***
INFLUENCE OF FORMATION MODES ON THE PROPERTIES OF FIBROUS MATERIALS BASED ON POLYPHENYLENE SULFIDE.......................................131

***Bilynskyi Yo., Stetsenko A.,***
FEASIBILITY JUSTIFICATION FOR A HYBRID ULTRASONIC FLOWMETER FOR NATURAL GAS ......134

***Kiyalbay S., Baimukhambetov Ye.***
ABOUT THE CAUSES OF DEFORMATION ON PUBLIC ROADS .............. **Ошибка! Закладка не определена.**

***Kiyalbay S., Baimukhambetov Ye.***
ON THE STRENGTH PROPERTIES OF ROAD CLOTHES ON THE HIGHWAYS OF KAZAKHSTAN OF LOCAL IMPORTANCE...........................................................144

# STATION–TYPE PENITENTIARIES IN THE REPUBLIC OF AZERBAIJAN: HISTORY, STATUS AND FUTURE PROSPECTS

**Humbatov Musa**
*Baku City, the Republic of Azerbaijan*
DOI: 10.5281/zenodo.20444344

# AZƏRBAYCAN RESPUBLİKASINDA MƏNTƏQƏ TİPLİ CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİ: TARİXİ, VƏZİYYƏTİ VƏ GƏLƏCƏK PERSPEKTİVLƏRİ

**Hümbətov Musa Hümbət oğlu**
*Azərbaycan Respublikası, Bakı şəhəri*

**Abstract**
The history and development of station-type penitentiaries in the Republic of Azerbaijan, the experience of serving sentences in these institutions are reviewed, and proposals are made to improve their activities and solve existing difficulties.
**Xülasə**
Azərbaycan Respublikasında məntəqə tipli cəzaçəkmə müəssisələrinin yaranma tarixi, inkişafı, həmin müəssisələrdə cəzanın icrası təcrübəsi nəzərdən keçirilir, onların fəaliyyətinin təkmilləşdirilməsinə, mövcud çətinliklərin həllinə yönəlmiş təkliflər verilir.

**Keywords:** Republic of Azerbaijan, Criminal Code, Correctional and Labor Code, Code of Execution of Sentences, imprisonment, station-type penal institutions.
**Açar sözlər:** Azərbaycan Respublikası, Cinayət Məcəlləsi, İslah-Əmək Məcəlləsi, Cəzaların İcrası Məcəlləsi, azadlıqdan məhrum etmə cəzası, məntəqə tipli çəzaçəkmə müəssisələri.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (bundan sonra AR CM) 56-cı maddəsinə uyğun olaraq azadlıqdan məhrum etmə növündə cəzalara məhkum edilmiş şəxslər cəzalarını müxtəlif növlü cəzaçəkmə müəssisələrində çəkirlər. Məhkəmə, cəzaçəkmə müəssisəsinin növünü cinayət qanununa istinadən, yəni məhkum edilən şəxsin yaşını, cinsini, törədilmiş cinayətin ağırlıq dərəcəsini, təqsirin növünü, keçmiş məhkumluğunu, təyin edilmiş cəzanın müddətini nəzərə almaqla müəyyənləşdirir [1, Səh. 80]. AR CM-in sözügedən maddəsində azadlıqdan məhrum etmə cəzasının çəkilməsi yeri kimi məntəqə tipli cəzaçəkmə müəssisəsi də müəyyən edilmişdir. Ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslərə cəzanın çəkilməsi yeri məntəqə tipli cəzaçəkmə müəssisəsi təyin edilir. Eyni zamanda, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin (bundan sonra AR CİM) 70-ci maddəsinin ilkin redaksiyasında ümumi və ciddi rejimli cəzaçəkmə müəssisələrində müsbət xarakterizə olunan, cəza müddətinin ən azı üçdə birini, xüsusilə ağır cinayətlər törətməyə görə məhkum olunan və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, lakin cəzanın çəkilməmiş hissəsi dövründə yeni cinayət törətmiş məhkumların isə, cəza müddətinin ən azı üçdə ikisini çəkdikdən sonra məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsi imkanı nəzərdə tutulmuşdu. Sözügedən maddədə məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsi qadağan edilmiş məhkumların siyahısı da verilmişdi. Belə ki, cinayətlərin xüsusi təhlükəli residivinə görə məhkum olunmuş, ömürlük azadlıqdan məhrum etmə növündə cəzası müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilmiş, habelə tibbi xarakterli məcburi tədbirlər keçməli olan şəxslər məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilə bilməzdilər.

Azərbaycan Respublikasının 27 dekabr 2001-ci il tarixli Qanunu ilə AR CİM-in 70-ci maddəsinə edilmiş dəyişikliyə əsasən ağır cinayətlərə görə məhkum edilmiş şəxslərin məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsi şərti dəyişdirilmiş, çəkilməsi tələb olunan müddət artırılaraq, təyin olunmuş cəzanın ən azı üçdə ikisi müəyyən edilmişdir. Ölkənin 31 may 2011-ci il tarixli Qanunu ilə edilmiş digər dəyişikliyə uyğun olaraq isə, məntəqə tipli çəzaçəkmə müəssisəsinə kecirilməyən şəxslərin dairəsi genişləndirilərək, müvafiq siyahıya ciddi rejimli çəzaçəkmə müəssisələrində cəza çəkən, habelə AR CİM-in 70-ci maddəsinə uyğun olaraq ciddi rejimli cəzaçəkmə müəssisələrindən ümumi rejimli cəzaçəkmə müəssisələrinə keçirilmiş məhkumlar da əlavə edilmişdir. Sonuncu dəyişiklik məntəqə tipli çəzaçəkmə müəssisəsinə keçirilən məhkumların sayının azalmasına səbəb olmuşdur. AR CİM-in 70-ci maddəsinin qüvvədə olan redaksiyasına uyğun olaraq ümumi rejimli cəzaçəkmə müəssisələrində müsbət xarakterizə edilən, ilk dəfə böyük ictimai təhlükə törətməyən, az ağır cinayətlərə görə məhkum edilmiş şəxslər, onlara təyin edilmiş cəza müddətinin üçdə birini, ağır cinayətlərə görə məhkum edilmişlər isə, üçdə ikisini çəkdikdən sonra məhkəmənin qərarı ilə məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilə bilərlər. Beləliklə, qüvvədə olan qanunvericiliyə əsasən Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə cəzasının çəkilməsi yeri kimi müəyyən edilmiş məntəqə tipli cəzaçəkmə müəssisəsinin iki növü mövcuddur. 2025-ci ilin sonuna Azərbaycan Respublikasında, biri Naxçıvan Muxtar

Respublikasının ərazisində olmaqla, on beş məntəqə tipli cəzaçəkmə müəssisəsi fəaliyyət göstərirdi.

Məntəqə tipli cəzaçəkmə müəssisəsi digər növlü cəzaçəkmə müəssisələrindən cəzanın icrası şərtləri və cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları (bundan sonra CÇM DİQ) ilə müəyyən olunmuş quruluşu ilə fərqlənir. Belə ki, sözügedən müəssisələr cəzaların icrası qanunvericiliyinə uyğun olaraq silahlı mühafizə olunmur, yüksək hasarlarla əhatə edilmir, kamera tipli otaqlara (binalara) malik deyillər. Məhkumlar məntəqə tipli cəzaçəkmə müəssisələrinin daxilində, habelə müəyyən məhdudiyyətlərlə onların yerləşdiyi ərazidə sərbəst hərəkət edə bilərlər, cəzanın icrası şərtləri digər növlü cəzaçəkmə müəssisələri ilə müqayisədə xeyli humanistdir. Buna görə də bir sıra dövlətlərdə onları açıq cəzaçəkmə müəssisəsi də adlandırırlar. Hazırda məntəqə tipli cəzaçəkmə müəssisələri əvvəllər sabiq Sovet Sosialist Respublikaları İttifaqının (bundan sonra SSRİ) tərkibində olmuş respublikaların, habelə onlara oxşar açıq müəssisələr Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Almaniyanın, İsveçin, Çexiyanın, Finlandiyanın və digər ölkələrin cəza-icra sistemlərinin tərkibinə daxildir.

SSRİ-yə daxil olan digər respublikalarda olduğu kimi, Azərbaycanda da məntəqə tipli cəzaçəkmə müəssisəsinin təşkilinın hüquqi əsası hələ 1963-cü ildə qoyulmuşdu. Belə ki, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 11 dekabr 1963-cü il tarixli Fərmanı ilə azadlıqdan məhrum edilmiş şəxslərin islah olunması və yenidən tərbiyələndirilməsi işinin daha da təkmilləşdirilməsi, cəzasının bir hissəsini çəkmiş və islah yoluna möhkəm qədəm qoymuş məhkumların saxlanması məqsədilə müvafiq növlü islah-əmək koloniyası təsis olunmuşdu. Sözügedən fərmana əsasən, azadlıqdan məhrum edilməklə cəzalarını ümumi, möhkəm və ciddi rejimli islah-əmək müəssisələrində çəkən, özünün nümunəvi davranışı ilə fərqlənən, əməyə vicdanla yanaşan, özfəaliyyət təşkilatlarında və öz kollektivinin ictimai həyatında iştirak edən məhkumlar məhkəmənin qərarına əsasən islah-əmək koloniya-məntəqələrinə–köçürmə yerlərinə (bundan sonra islah-əmək koloniya-məntəqəsi) keçirilə bilərdilər. Onu da qeyd etmək istərdik ki, cinayət qanunvericiliyində, habelə hüquq ədəbiyyatında islah-əmək koloniya-məntəqəsinə, yaxud məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi kimi də xarakterizə edilir.

İslah-əmək koloniya-məntəqəsi, 1921-ci ildə pilot qaydada Rusiya Federasiyasında yaradılmış keçid növlü islah-əmək evlərinə oxşarlığı ilə diqqəti cəlb edir. Bir müddət sonra keçid islah-əmək evləri SSRİ-nin tərkibində olan digər respublikaların, o cümlədən Azərbaycan SSR-nin islah-əmək qanunvericiliyinə də daxil edilmişdi. Belə ki, 25 may 1925-ci il tarixli Azərbaycan SSR-nin İslah-Əmək Məcəlləsinin (bundan sonra Az. SSR İƏM) 46-cı maddəsində keçid islah-əmək evləri həbs yerlərinin, yəni azadlıqdan məhrum etmə yerlərinin bir növü kimi təsbit olunmuşdu. İstinad olunan məcəllənin 156-cı maddəsinə əsasən keçid islah-əmək evləri azadlıqdan məhrum etmə cəzasının bir hissəsini çəkmiş, əmək həyatına uyğunlaşma nümayiş etdirən, həmin vaxtlar qanunvericiliyə uyğun olaraq məhkəmələrin yanında fəaliyyət göstərən, Bölüşdürmə komissiyaları adlandırılan xüsusi qurum tərəfindən, cəzanın icrası şərtləri daha humanist olan yarımsərbəst rejim şəraitinə keçirilməsi məqsədəuyğun hesab edilmiş məhkumlar üçün nəzərdə tutulmuşdu. Keçid islah-əmək evlərinin əsas məqsədi müvafiq məhkumların azad həyata necə hazır olduqlarını müəyyən etmək idi. Həmin islah-əmək evlərində cəzanın icrası şərtləri digər həbs yerləri ilə müqayisədə bir qədər humanist olmuşdur. Sonralar keçid islah-əmək evləri SSRİ-də cəza siyasətinin sərtləşdirilməsi ilə əlaqədar 1929–1930-cü illərdə ləğv edilərək, digər növlü həbs yerlərinə çevrilmişdi [2, c. 180]. Keçid növlü islah-əmək evlərinin ömrü qısa müddətli olduğuna görə onlar Azərbaycan SSR-də təşkil edilməmişdi.

SSRİ-də islah-əmək koloniya-məntəqəsinin yaradılmasının bir neçə məqsədi var idi. Onların təşkili ilk növbədə azadlıqdan məhrum etmə cəzasının çəkilməsi rejiminin humanistləşdirilməsi məqsədi daşısa da, aşağıdakı əlavə hədəflər də göstərilirdi:

– ümumi, ciddi rejimli cəzaçəkmə müəssisələrində məhkumların qanuna itaətli davranışa həvəsləndirilməsi;

– məhkumun cəmiyyətdən uzun müddət təcrid edilməsi ilə əlaqədar yaranan mənfi nəticələrin bir qədər neytrallaşdırılması;

– cəzanın icrası prosesində məhkumların islahı ilə əlaqədar əldə olunmuş müsbət nəticələrin möhkəmləndirilməsi və onların azad cəmiyyətdə yaşayışa hazırlanması;

– cəzanın icrasının məqsədlərinə nail olunması [3, c. 350].

Lakin göstərilənlərdən əlavə, elan edilməyən daha bir məqsədi, yəni azadlıqdan məhrum edilmiş məhkumların ucuz əməyindən istifadə etməklə, onların SSRİ-də xalq təsərrüfatı sahələrində qarşıda duran vacib vəzifələrin həyata keçirilməsinə, habelə kifayət qədər gəlir gətirən ağır fiziki işlərə də cəlb edilməsini vurğulamaq lazımdır. Belə ki, qeyd olunanlara dövlət əhəmiyyətli tikintilərdə, o cümlədən Baykal–Amur magistral dəmir yolunun inşasında, o vaxtkı dövlətin xəzinəsinə hər il xeyli miqdarda xarici valyuta gətirən, lakin bir qayda olaraq, SSRİ-nin şimalında yaşayış üçün çox çətin, bəzi hallarda nəqliyyat çatımlığı kifayət qədər məhdud yerlərdəki meşələrdə ağac emalı işlərində əmək qabiliyyətli azadlıqdan məhrum edilmiş şəxslərin, o cümlədən islah-əmək koloniya-məntəqələrindəki məhkumların əməyindən geniş istifadə edilməsini misal gətirmək olar. Eyni zamanda, islah-əmək koloniya-məntəqələrinin, habelə həmin müəssisələrdə məhkumların saxlanması xərcləri digər növ islah-əmək koloniyaları ilə müqayisədə daha az maliyyə vəsaiti tələb edirdi [4, c. 202]. İlk növbədə Rusiya Federasıyasının ərazisində təşkil edilmiş həmin müəssisələrə SSRİ-yə daxil olan respublikalardan, o cümlədən Azərbaycandan da məhkumlar göndərilirdi. Onların məsafə baxımından Azərbaycan SSR-dən kifayət qədər uzaqlarda, bəzi hallarda isə, yaşayış yerlərindən xeyli kənarda, keçilməz ərazilərdə yerləşməsi, habelə məhkumlarla görüş məqsədilə səfərlərin heç də az olmayan vəsait tələb etdiyi səbəblərindən sözügedən müəssisələrdə cəza çəkənlərin qohumları ilə bilavasitə əlaqələrində ciddi

çətinliklər yaranırdı, onlar bəzi hallarda, demək olar ki, mümkünsüz olurdu. Bu da öz növbəsində məhkumların öz ailələri ilə normal ünsiyyətlərinin saxlanmasına mənfi təsir göstərirdi [5, p. 64].

Cəza siyasətinin humanistləşdirilməsi ilə əlaqədar SSRİ Ali Soveti Rəyasət Heyətinin SSRİ və müttəfiq respublikaların cinayət və islah-əmək qanunvericiliklərinin əsaslarına əlavə və dəyişikliklər edilməsinə dair 8 fevral mart 1977-ci il tarixli Fərmanına uyğun olaraq, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 28 mart 1977-ci il tarixli Fərmanı ilə ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə ilk dəfə azadlıqdan məhrum etməyə məhkum edilən şəxslər üçün islah-əmək koloniya-məntəqəsinin yeni növü müəyyən edildi. Həmin müəssisələrin təşkilinin məqsədi məhkumların əməyindən istifadə edilməsilə yanası, ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə ilk dəfə azadlıqdan məhrum edilmiş şəxsləri digər məhkumlardan ayırmaq, böyük ciddi ictimai təhlükə törətməyən belə kateqoriyalı məhkumları yarı azadlıq şəraitində islah və yenidən tərbiyə etmək, onları ağır, habelə təkrar cinayət törətmiş, sosial və mənəvi pozğunluğu yüksək olan digər şəxslərin mənfi təsirindən qorumaq olmuşdur [6, c. 55].

Bir müddət sonra SSRİ və müttəfiq respublikaların cinayət və islah-əmək qanunvericiliklərinin əsaslarına əlavə və dəyişikliklər edilməsi ilə bağlı SSRİ Ali Soveti Rəyasət Heyətinin 2 aprel 1985-ci il tarixli Fərmanına uyğun olaraq, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 16 may 1985-ci il tarixli Fərmanı ilə qəsdən törədilmiş, ağır olmayan cinayətlərə görə ilk dəfə beş ilədək azadlıqdan məhrum etməyə məhkum edilənlər üçün islah-əmək koloniya-məntəqəsinin daha bir növü müəyyən olunmuş və belə bir müəssisə Bakı şəhərinin ərazisində təşkil edilmişdi. Lakin həmin yeni növ islah-əmək koloniya-məntəqəsində cəza çəkən məhkumların sayının kifayət qədər az olması səbəbindən onlar azadlıqdan məhrum etmə yeri kimi SSRİ-yə daxil olan əksəriyyət respublikaların yeni cinayət qanunvericiliyinə, o cümlədən Azərbaycan Respublikasının 1999-cu ilin 30 dekabr tarixli yeni Cinayət Məcəlləsinə də daxil edilməmişdir. Eyni zamanda, sözügedən növlü məntəqə tipli cəzaçəkmə müəssisələri Rusiya Federasiyasının, Özbəkistanın, Moldova Respublikasının Cinayət məcəllələrində qalmaqdadır.

İslah-əmək koloniya-məntəqəsinin iki digər növü təcrübədə onlara bəslənən ümidləri ümumən doğrultmuş, buna görə də uzun müddətdir ki, onlar qanunvericilikdə öz yerlərini qoruyub saxlamışlar. Hər üç növ islah-əmək koloniya-məntəqəsində cəzanın icrası qayda və şərtləri Az. SSR İƏM-də eyni olmuş, müvafiq normalar sonradan demək olar ki, böyük dəyişikliklərə məruz qalmadan AR CİM-də də öz əksini tapmışdır.

XX əsrin 80-ci illərin sonunda Azərbaycanda ümumən dörd, onlardan üçü ölkənin Qarabağ regionunun ərazisində olmaqla, islah-əmək koloniya-məntəqəsi fəaliyyət göstərirdi. Həmin müəssisələrdə cəzanın icrası, məhkumların saxlanması üçün qanunvericiliyin tələblərinə uyğun olaraq zəruri şərait və infrastruktur yaradılmışdı. Həmin islah-əmək koloniya-məntəqələrində məhkumlar ictimai faydalı əməklə təmin olunmuş, onlar SSRİ-nin Dövlət Plan Komitəsi tərəfindən müəyyən edilmiş müvafiq iş bölgüsünə uyğun olaraq müxtəlf, o cümlədən kənd təsərrüfatı ilə bağlı sahələrdə, habelə üzümçülükdə istifadə olunan dəmir-beton dirəklərin istehsalı işinə cəlb edilmişdilər. Lakin qeyd olunmalıdır ki, həmin müəssisələrdə ölkə məhkəmələri tərəfindən cəzasının çəkilməsi yeri islah-əmək koloniya-məntəqəsi təyin edilmiş məhkumların bir hissəsi cəza çəkirdi, digər belə şəxslər isə, yuxarıda göstərildiyi kimi digər respublikalara, bir qayda olaraq Rusiya Federasiyasının ərazisindəki müvafiq növlü müəssisələrə göndərilirdilər.

1988-ci ilin əvvəlində Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları, etnik zəmində təxribatları, terror əməlləri ilə başlamış, qısa müddət sonra ciddi hərbi münaqişəyə cevrilmiş hadisələrlə bağlı Qarabağda fəaliyyət göstərən islah-əmək koloniya-məntəqələri təhlükəsizlik baxımından məhkumlarla birlikdə respublikanın digər ərazilərinə köçürülmüşdü [7, c. 325]. Eyni zamanda, həmin vaxtlar SSRİ-nin süqutu, Azərbaycanın öz müstəqilliyini bərpa etməsi ilə əlaqədar sabiq ittifaqa daxil olan digər respublikaların ərazisindəki islah-əmək koloniyalarında, o cümlədən islah-əmək koloniya-məntəqələrində cəza çəkən azərbaycanlı məhkumların kütləvi şəkildə ölkəyə qaytarılması ilə bağlı, habelə yeni məhkəmə qərarlarına uyğun olaraq məhkum edilmiş və ya digər müəssisələrdən keçirilmiş müvafiq şəxslərin qanunvericiliyə uyğun yerləşdirilməsində ciddi problemlər yaranmışdı. Məsələnin həlli məqsədilə qısa müddətdə ölkədə yeni islah-əmək koloniyalarının, o cümlədən bir neçə islah-əmək koloniya-məntəqəsinin təşkili ilə bağlı qərarlar qəbul edilmişdi [8, Səh. 196–197]. Lakin mövcud islah-əmək koloniya-məntəqələrinin dislokasiya yerinin dəyiş-dirilməsi, habelə yenilərinin yaradılması zamanı Azərbaycanın müharibə şəraitində olması, Ermənistan ərazisində daimi yaşayan azərbaycanlıların kütləvi şəkildə deportasiyası, ölkənin torpaqlarının bir hissəsinin işğalı nəticəsində on şəhər və rayondan öz yaşayış yerlərini tərk etmiş məcburi köçkünlərin sayının kifayət qədər çox olması, habelə ölkə iqtisadiyyatının çətin vəziyyəti ilə əlaqədar, onların islah-əmək qanunvericiliyinin tələblərinə cavab verən şəraitdə fəaliyyət göstərməsi üçün zəruri infrastrukturun tam təşkili imkan xaricində olmuşdur. Sonrakı dövrlərdə, istər islah-əmək koloniya-məntəqələrində, istərsə məntəqə tipli cəzaçəkmə müəssisələrində qanunvericiliyə uyğun şəraitin yaradılması məqsədilə dövlət büdcəsindən vəsait ayrılması ilə bağlı edilmiş müraciətlər müsbət nəticə vermədiyindən, problemlər öz həllini tapmamışdır. Nəticədə, həmin müəssisələrdə cəzanın icrasının qanunvericiliyə uyğun həyata keçirilməsi mümkün olmamış, maddi-məişət şəraitində, ictimai faydalı əməyə cəlb edilmədə, habelə qidalanmadakı çətinliklər nəticəsində məhkumların cəzanın yayınması, yeni təkrar cinayətlərin törətməsi hallarının artması tendensiyası müşahidə edilmişdir. Eyni zamanda, yaranmış vəziyyət ictimaiyyətin, xüsusilə müvafiq məhkumların törətdikləri cinayətlərdən zərərçəkmiş

şəxslərin və onların yaxınlarının haqlı narazılıqlarına da səbəb olmuşdur.

Problemin həllinə kömək məqsədilə, yuxarıda qeyd olunduğu kimi, Azərbaycan Respublikasının 31 may 2011-ci il tarixli Qanunu ilə AR CİM-ə də edilmiş dəyişikilklərlə məntəqə tipli cəzaçəkmə müəssisələrinə digər müəssisələrdən keçirilən məhkumların dairəsi məhdudlaşdırılmış, habelə sözügedən məcəllənun 119-cu maddəsi yeni redaksiyada verilməklə, cəzanın icrası şərtləri bir qədər sərtləşdirilmişdir. Belə ki, müvafiq maddənin yeni mətninin sabiq redaksiyadan əsas fərqi, ilk növbədə, cəza çəkən məhkumların birmənalı olaraq məntəqə tipli cəzaçəkmə müəssisəsinin yataqxanasında yaşaması, onların yalnız müəssisə daxilində sərbəst hərəkət etmələrinə icazə verilməsi ilə bağlıdır. Göstərilən dəyisiklikliyə qədər məhkumlar müəssisənin yerləşdiyi ərazidə də sərbəst hərəkət edə bilərdilər, habelə mənzil şəraiti olduqda, onlar müdiriyyətin icazəsi ilə cəzaçəkmə müəssisəsinə yaxın ərazidə öz ailələri ilə birlikdə yaşaya, yaşayış yeri əldə edə və şəxsi təsərrüfat da yarada bilərdilər. Hazırda isə, məhkumlar məntəqə tipli cəzaçəkmə müəssisəsini, yalnız ona yaxın ərazidə işə düzəldikləri və ya ali, orta ixtisas, peşə təhsili müəssisələrində təhsil aldıqları halda, müdiriyyətin razılığı ilə və Azərbaycan Respublikasının ərazi hüdudlarında olmaqla, sutkada on iki saatdan artıq olmayan müddətdə tərk edə bilərlər. Bu halda müəssisənin müdiriyyəti tərəfindən hər bir məhkumla bağlı qərar qəbul edilir, onun məntəqə tipli cəzaçəkmə müəssisəsindən çıxması və geriyə qayıtması vaxtı fərdi tərtib olunan cədvəllə müəyyənləşdirilir. Eyni zamanda, əvvəllər məhkumların yemək, tibbi-sanitariya və digər təminatları özləri tərəfindən, yəni öz vəsaitləri hesabına həyata keçirilirdi. Cəzanın icrası şərtlərinin dəyişdirilməsi ilə bağlı müvafiq məhkumların kommunal, yemək, maddi-məişət, tibbi-sanitariya və digər təminatlarının artıq dövlət hesabına həyata keçirilməsi nəzərdə tutulmuşdur. Habelə, müvafiq dəyişikliyə uyğun olaraq məhkumların yaxın qohumları və digər şəxslərlə qısa və uzun müddətli görüşləri məntəqə tipli cəzaçəkmə müəssisəsinin ərazisində həyata keçirilir. Əvvəllər isə, məhkumlar görüş huquqlarını müəssisədən kənarda da, yəni onun yerləşdiyi inzibati ərazidə və sərbəst şəkildə həyata keçirə bilərdilər.

Eyni zamanda, AR CİM-in 105-ci maddəsinə uyğun olaraq məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlara həvəsləndirmə tədbiri qaydasında istirahət və bayram günlərini müəssisəsinin ərazisindən kənarda keçirməyə icazə verilə bilər. Habelə, AR CİM-in 107-ci maddəsində, cəzanın icrası qaydalarını qərəzli pozan məhkumlara, bir ay müddətində məntəqə tipli cəzaçəkmə müəssisəsindən kənara çıxmağın və ya üç ay ərzində istirahət və bayram günlərini cəzaçəkmə müəssisəsindən kənarda keçirməyin qadağan edilməsi kimi tənbeh tədbirlərinin tətbiq edilməsi də nəzərdə tutulmuşdur.

Qeyd olunanlarla yanaşı, məhkumların sözügedən müəssisələrdə mühafizəsiz, lakin nəzarət altında saxlanılmaları, məhdudiyyət qoyulmadan qohumları, digər şəxslərlə yazışmaları, görüşləri, bağlama, sovqat və ya banderol almaları, məişətdə istifadə edilən adi geyim daşımaları, özlərində pul və qiymətli əşyalar gəzdirmələri, puldan qeyri-məhdud istifadə etmələri ilə bağlı normalar dəyişikliklərə məruz qalmamış, onlara hər gün, müddəti on beş dəqiqə olmaqla, bir telefon danışığı və ya videogörüş hüququ da verilmişdir. AR CİM-ə edilmiş sözügedən sonuncu dəyişiklik, məntəqə tipli cəzaçəkmə müəssisələrinin CÇM DİQ-lə müəyyən olunmuş quruluşunun təkmilləşdirilməsini, yəni gündəlik qidalanmanın təşkili üçün ərzaq anbarının, mətbəxin, yeməkxananın, habelə görüş otaqlarının (qısa və uzun müddətli), tibb-sanitariya hissəsinin, kitabxananın, ticarət köşkünün, camaşırxanın, idman meydançasının və digər zəruri obyektlərin təşkilini, yaxud yenidən qurulmasını, habelə işçi heyətinin sayının, məhkumların saxlanma xərclərinin artmasını şərtləndirmişdir. Eyni zamanda, məhkumların əmək hüquqlarının həyata keçirilməsi ilə əlaqədar, yəni məntəqə tipli çəzaçəkmə müəssisələrinin nəzdində və ya onun yaxınlığında istehsal sahələrinin yaradılması, yaxud cəza çəkənlərin yaxın ərazilərdə digər müəssisə və təşkilatlarda işlə təmin edilməsi məsələsinin həlli ilə bağlı aidiyyəti tədbirlərin görülməsi zərurəti də yaranmışdı. AR CİM-ə edilmiş dəyişikliyin, onunla bağlı dövlət başçısının 25 iyun 2011-ci il tarixli sərəncamının, habelə Nazirlər Kabinetinin müvafiq qərarının icrası ilə bağlı məntəqə tipli cəzaçəkmə müəssisələrində zəruri tikinti və yenidənqurma işlərinin həyata keçirilməsi, onların maddi-texniki bazasının təkmilləşdirilməsi ilə əlaqədar Ədliyyə nazirliyi tərəfindən ətraflı təhlillər aparılmış, görülməli insa-təmir işlərinin həcmi, təchizat və təminatla bağlı məsələlərin həlli, ehtiyac duyulan əlavə ştat vahidləri ilə bağlı təkliflər hazırlanmış, habelə tələb olunan, heç də az olmayan maliyyə vəsaitinin ilkin məbləği müəyyən edilmişdi. Lakin aidiyyəti dövlət orqanlarına edilmiş müraciətlərə baxmayaraq, maliyyə vəsaiti ayrılmamış, buna görə də problemlər öz həllini tapmamışdır.

Məntəqə tipli cəzaçəkmə müəssisələrində mövcud problemlərin çözülməsi üçün kifayət qədər böyük məbləğdə maliyyə vəsaitinin ayrılması ilə bağlı çətinlikləri nəzərə alaraq, onun miqdarının azaldılması məqsədilə Ədliyyə nazirliyi tərəfindən AR CM-in 76-cı, AR CİM-in 70 və 119-cu maddələrinə bir sıra dəyişikliklər edilməsi ilə bağlı təkliflər də hazırlanmışdı. Təkliflərdə, cəzaçəkmə müəssisələrindən keçirilmiş məhkumlar üçün nəzərdə tutulmuş məntəqə tipli cəzaçəkmə müəssisələrinin ləğv edilməsi, həmin kateqoriyalı məhkumların AR CM-in 76-ci maddəsində təsbit edilmiş və ya digər məhkumlarla müqayisədə bir qədər imtiyazlı şərtlərlə cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi nəzərdə tutulmuşdu. Eyni zamanda, ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə məhkum olunmuş şəxslər üçün məntəqə tipli cəzaçəkmə müəssisəsində cəzanın icrası şərtlərini humanistləşdirməklə, onların müəyyən qədər dəyişdirilməsi də təklif edilmişdi. Lakin təkliflər məntiqi sonluğa yetmədiyindən, vəziyyət dəyişməmiş və çətinliklər olduğu kimi qalmışdır. Eyni zamanda, Naxçıvan Muxtar Respublikasında penitensiar kompleksin, yəni qarışıq rejimli cəzaçəkmə müəssisəsinin tikintisi zamanı onun bilavasitə yaxınlığında cəzaların icrası qanunvericiliyinin tələblərinə cavab verən yeni məntəqə tipli cəzaçəkmə müəssisəsi inşa edilmişdir [9, c. 5].

Məntəqə tipli çəzaçəkmə müəssisələrində cəza çəkən şəxslərin sayı ilə bağlı qeyd olunmalıdır ki, onlar müxtəlif illərdə Azərbaycan Respublikasının cəzaçəkmə müəssisələrindəki məhkumların ümumi sayının təxminən 5–15 %-ni təşkil etmişdir. Müvafiq şəxslərin böyük əksəriyyəti ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə, xüsusilə AR CM-in 263, 263-1-ci maddələrində nəzərdə tutulmuş yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozulması ilə əlaqədar əməllərə görə məhkum edilmişlər olmuşdur. İstinad edilən maddələrdə göstərilmiş ictimai təhlükəli əməlləri törətmiş şəxslərin artması, ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə məhkum olunmuş şəxslər üçün nəzərdə tutulmuş məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkənlərin də sayının ardıcıl olaraq artımına səbəb olmuşdur. Eyni zamanda, ölkədə müstəqillik illərində, o cümlədən 2001–2025-ci illərdə qəbul edilmiş səkkiz amnistiya aktının məntəqə tipli cəzaçəkmə müəssisələrində, xüsusilə ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə cəza çəkən şəxslərə də tətbiq edilməsinin nəzərdə tutulması, sözügedən məhkumların sayının azalmasına zəmin yaratmışdır. Belə ki, 2013, 2016 və 2021-ci illərdə qəbul edilmiş üç amnistiya aktının icrası prosesində ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə məhkum edilmiş 4 min 400-dən çox şəxs cəza çəkməkdən azad olunmuşdu ki, onların da böyük əksəriyyətini məntəqə tipli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumlar təşkil etmişdi.

Azərbaycan Respublikasının Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli "Konstitusiya və Suverenlik İli" münasibətilə qəbul etdiyi sonuncu amnistiya aktı ümumən 22 min 935 təqsirləndirilən şəxsə və məhkuma tətbiq olunmuşdur ki, onların da 5 min 348 nəfəri azadlıqdan məhrum etmə cəzasından azad edilmişdir. Cəzaçəkmə müəssisələrindən azad olunanların təxminən 20 %-ni məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar təşkil etmişdir [10]. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin əfvetmə aktları məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlara da tətbiq olunmuşdur. Belə ki, təkcə 2011–2025-ci illər ərzində imzalanmış 23 əfvetmə aktı, ümumilikdə 5 min 30 məhkuma şamil edilmişdir. Onlardan 1 min 206 nəfəri ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə cəzadan azad olunmuşdur ki, həmin şəxslərin də bir hissəsini məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar təşkil etmişdir [11, c. 37]. Nəticədə, müvafiq illərdə, habelə 2026-cı ilin birinci yarısında sözügedən cəzaçəkmə müəssisələrində məhkumların sayı xeyli azalmışdır.

Lakin qeyd olunanlara baxmayaraq, yaranmış vəziyyət, yəni məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın icrasının qüvvədə olan qanunvericiliyə uyğun icrasının təmin edilməsi problemi ölkə rəhbərliyini də narahat etmişdir. Buna görə də Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamında cəzaların icrası sahəsində mövcud nöqsan və problemlər arasında məntəqə tipli cəzaçəkmə müəssisələrinin normal fəaliyyətinin təmin olunmadığı da qeyd edilmişdir. Sərəncamda sözügedən müəssisələrdə cəzanın AR CİM-də nəzərdə tutulmuş qaydada çəkilməsinin və məhkumlar tərəfindən rejim qaydalarına ciddi riayət olunmasının təmin edilməsi, bu sahədə korrupsiyaya şərait yaradan və digər neqativ halların qarşısının alınması üçün tədbirlər görülməsi ilə əlaqədar tapşırıqlar verilmişdir. Eyni zamanda, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məhkumların məntəqə tipli cəzaçəkmə müəssisələrində saxlanmasına və təminatına dair AR CİM-in müddəalarına riayət olunmasının təmin edilməsi məqsədilə tikinti və təchizat işlərinin yerinə yetirilməsi üçün maliyyə vəsaitinin ayrılmasının mümkünlüyünə baxılması da tapşırılmışdır. Sözügedən sərəncamda dövlət başçısının məntəqə tipli cəzaçəkmə müəssisələri ilə əlaqədar verdiyi tapşırıqlara uyğun olaraq görülməli aidiyyəti tədbirlər "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"nın icrası üzrə Tədbirlər Planına da daxil edilmiş, habelə, həmin Planda müvafiq növlü müəssisəyə keçirilmə institutunun təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması ilə bağlı tapşırıq da öz əksini tapmışdı. Dövlət başçısının sərəncamının, ölkənin Nazirlər Kabinetinin müvafiq qərarının, habelə istinad edilən Dövlət Proqramının aidiyyəti bəndlərinin icrasının təmin olunması məqsədilə Ədliyyə nazirliyi tərəfindən xüsusi komissiya yaradılmış, bütün məntəqə tipli cəzaçəkmə müəssisələri üzrə ətraflı təhlillər aparılmış, beynəlxalq təcrübə öyrənilməklə onların fəaliyyətinin AR CİM-in tələblərinə uyğun təşkili məqsədilə təkliflər hazırlanmış və zəruri tədbirlərin həyata keçirilməsi ilə əlaqədar maliyyə vəsaitinin ayrılması üzrə yenidən müraciətlər olunmuşdur. Habelə, verilmiş tapşırığa uyğun olaraq məntəqə tipli cəzaçəkmə müəssisələrinə keçirilmə, habelə həmin müəssisələrdə cəzanın icrası şərtlərinin dəyişdirilməsi ilə bağlı təkliflər də hazırlanmışdı. Belə ki, ölkənin ümumi rejimli cəzaçəkmə müəssisələrinin nəzdində, təcrid olunmuş qaydada və ya onlara bilavasitə bitişik ərazilərdə məntəqə tipli cəzaçəkmə müəssisələri əvəzinə sosial reabilitasiya sahələrinin yaradılması ilə əlaqədar AR CM, AR CİM-ə dəyişikliklər edilməsi nəzərdə tutulmuşdu. Sözügedən reabilitasiya sahələrində cəzanın icrası, məhkumların saxlanması üçün müvafiq cəzaçəkmə müəssisələrindəki mövcud infrastrukturun imkanlarından, o cümlədən nəzarətin həyata keçirilməsi, habelə qidalanma və digər məsələlərin həlli ilə əlaqədar istifadə edilə bilərdi. Eyni zamanda, Ədliyyə nazirliyinin rəhbərliyinin tövsiyəsinə əsasən, məhkumların məntəqə tipli cəzaçəkmə müəssisələrinə keçirilməsi əvəzinə, onların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsinə üstünlük verilmiş, nəticədə, müvafiq tipli müəssisələrdə cəza çəkən şəxslərin sayı xeyli azalmışdır. Qeyd olunanlarla yanaşı, Ədliyyə nazirliyi Penitensiar xidmətinin fəaliyyətinin təşkili ilə əlaqədar hər il dövlət büdcəsindən ayrılmış vəsait çərçivəsində sözügedən müəssisələrdə mövcud maddi-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı müəyyən tədbirlər də görülmüş, habelə korrupsiya və digər neqativ halların qarşısının alınması üzrə səylər gücləndirilmişdir. Lakin

görülmüş işlərə, habelə dövlət başçısı tərəfindən verilmiş tapşırıqlardan doqquz ildən çox müddət keçməsinə baxmayaraq, qeyd olunan müəssisələrlə bağlı mövcud problemlər, ilk növbədə, maliyyə vəsaitinin ayrılmaması səbəbindən hələ də öz həllini tapmamışdır. Məntəqə tipli cəzaçəkmə müəssisələrinin fəaliyyətinin müvafiq qanunvericiliyə tam cavab vermədiyi, bununla bağlı zəruri tədbirlərin görülməsinin vacibliyi Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) İşgəncələr əleyhinə Milli Preventiv Mexanizm mandatı çərçivəsində müvafiq Qrupunun fəaliyyəti ilə əlaqədar müxtəlif illər üzrə hazırlanmış hesabatlarında da öz əksini tapmışdır [12].

Eyni zamanda, nəzərə almaq lazımdır ki, fəaliyyətinin təşkili ilə əlaqədar 2012–2025-ci illərdə Ədliyyə nazirliyinin Penitensiar xidmətinə dövlət büdcəsindən hər il artmaqla, ümumilikdə, təminən 1,6 milyard manatdan çox vəsait ayrılmışdır. Habelə, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə təsdiq edilmiş 2009–2013, 2019–2023-cü illər üçün ədliyyə orqanlarının inkişafı ilə bağlı iki Dövlət proqramında nəzərdə tutulmuş, cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər çərçivəsində məhkumlarla davranışa dair beynəlxalq standartlara uyğun inşa edilən, 2012, 2022–2024-cü illərdə Bakı, Şəki, Lənkəran şəhərlərində dörd yeni müasir penitensiar kompleksin, yəni müxtəlif növlü müəssisələrdən ibarət qarışıq rejimli cəzaçəkmə müəssisələrinin istismara verilməsi, habelə Gəncə şəhəri yaxınlığında daha bir böyük penitensiar kompleksin inşası ilə bağlı dövlət büdcəsindən kifayət qədər böyük maliyyə ayrılmışdır [13, c. 39, 14, c. 13]. Onu da vurgulamaq lazımdır ki, müvafiq illərdə ölkədə əhalinin, xüsusi ilə məcburi köçkün və qaçqınların sosial, maddi-məişət və digər problemlərinin həlli, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin modernləşdirilməsi, habelə dövlət əhəmiyyətli digər məsələlərin həlli istiqamətində hər il dövlət budcəsində heç də az olmayan məbləğlərdə vəsaitlər nəzərdə tutulmuşdu. Fikrimizcə, Azərbaycan Respublikasının Prezidenti məhz qeyd edilən səbəblər baxımından, yuxarıda istinad olunan sərəncamında məntəqə tipli cəzaçəkmə müəssisələrində tikinti, təchizat işlərinin və digər tədbirlərin yerinə yetirilməsi, zəruri infrastrukturun təşkili ilə əlaqədar maliyyələşmədə çətinliklər olduğunu nəzərə alaraq, sözügedən müəssisələrdə görüləsi işlərlə əlaqədar dövlət büdcəsindən vəsaitin ayrılmasının mümkünlüyünə baxılması ilə bağlı tapşırıq vermişdir.

Eyni zamanda, Azərbaycan Respublikasının düşmən tapdağı altında olmuş ərazilərinin bərpası, yenidən qurulması, sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması hədəflərinə uyğun islərə, habelə Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı müxtəlif təyinatlı və genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə 2020–2025-ci illərdə 22 milyard manatdan çox pul xərclənməsini, dövlət büdcəsindən 2026-cı ildə görüləcək müvafiq işlərə daha 3,5 milyard manat yönəldilməsini [15], habelə eyni məqsədlə ikinci Dövlət Proqramının hazırlanmasını və həyata keçiriləcək tədbirlərin xeyli maliyyə tələb edəcəyini də nəzərə almaq vacibdir.

Yuxarıda göstərilənlərə istinadən, məntəqə tipli cəzaçəkmə müəssisələrinin fəaliyyətində mövcud olan çətinliklərin aradan qaldırılmasının hazırkı dövrdə də kifayət qədər aktuallıq kəsb etdiyini, habelə dövlət başçısının müvafiq sərəncamda verdiyi tapşırıqların icrasının vacibliyini vurğulayaraq, arasdırılan məsələ ilə əlaqədar əvvəllər hazırlanmış təklifləri də nəzərə alaraq, problemin aşağıdakı kimi həllini daha məqsədəuyğun hesab edirik. Belə ki,

**– ya sözügedən müəssisələrin sayını azaltmaqla, onların cəzaların icrası qanunvericiliyində nəzərdə tutulmuş normalara uyğunlaşdırılmasının təmin edilməsi ilə bağlı lazımi tədbirlərin görülməsi;**

**– yaxud həmin müəssisələri ləğv etməklə, müvafiq şəxslərə alternativ cəzaların tətbiqi imkanının, habelə umumi rejimli cəzaçəkmə müəssisələrində aidiyyəti məhkumlara cəzanın yumşaldılması və yaxud cəzadan azad edilmə ilə əlaqədar əlavə imtiyazların təqdim olunması təklif edilir.**

Təkliflərimizi açıqlayaraq, qeyd etmək istərdik ki:

**1)** Məntəqə tipli cəzaçəkmə müəssisələrin birləşdirilməsi və onların yerləşdirmə hədlərinin (limitinin) iki-üç dəfə artırılması məqsədəuyğun olardı. Belə yanaşma, az sayda məntəqə tipli cəzaçəkmə müəssisələrində qanunverilcilikdə təsbit olunan şəraitin, zəruri infrastrukturun təşkili üçün tələb olunan maliyyə vəsaitinin məbləğinin xeyli azalmasına kömək edə bilərdi. Məntəqə tipli cəzaçəkmə müəssisələrinin sayının azaldılması ilə bağlı təcrübə artıq mövcuddur. Belə ki, hələ 2020-ci ildə Özbəkistanda məntəqə tipli cəzacəkmə müəssisəsinə göndərilmə əvəzinə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə institutlarından daha geniş istifadə olunması, habelə müvafiq kateqoriyalı məhkumlara azadlıqdan məhrum etmə əvəzinə alternativlər tətbiq edilərək, onların probasiya nəzarətinə verilməsi, bununla da sözügedən müəssisələrin sayının xeyli azadılması məqsədəuyğun hesab edilmiş və həmin qərarın icrası davam etməkdədir [16]. Fikrimizcə, məntəqə tipli cəzaçəkmə müəssisələrinin sayının azaldılması təqdirində, cəzanın icrası və islah prosesi üçün xüsusi əhəmiyyət kəsb edən bir məsələnin həlli, yəni məhkumların əhatəli şəkildə ictimai faydalı əməklə təmini məqsədilə, bir qayda olaraq, xüsusi təhsil, peşə və ixtisas hazırlığı tələb etməyən kənd təsərrüfatı ilə bağlı işlərə cəlb edilməsi daha məqsədəuyğun olardı. Belə yanaşmaya digər dövlətlərin təcrübəsində də rast gəlinir. Qeyd olunanlara istinadən məntəqə tipli cəzaçəkmə müəssisələrinin Azərbaycan Respublikasının yuxarıda göstərilən fəaliyyət sahəsi üçün daha əlverişli regionlarında təşkilini daha məqbul hesab edirik.

Eyni zamanda, ümumi rejimli cəzaçəkmə müəssisələrindən keçirilən məhkumlar üçün nəzərdə tutulmuş məntəqə tipli cəzaçəkmə müəssisələrində məhkumların sayının o qədər də çox olmadığını nəzərə alaraq, onların ləğv edilməsi, məsələnin daha asan çözülməsinə əlavə zəmin yaradardı. Müzakirə edilən problemin təklif edilən həlli yolu, qüvvədə olan AR

CİM-in tələblərindən irəli gəlməklə yanaşı, ölkə başçısının 10 fevral 2017-ci il tarixli sərəncamında verilmiş müvafiq tapşırıqların icrasını təmin edə bilərdi.

**2)** Məntəqə tipli cəzaçəkmə müəssisələrinin hər iki növünun ləğvinə gəldikdə, ilk növbədə, ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə məsuliyyəti nəzərdə tutan AR CM-in Xüsusi hüssəsinin müvafiq maddələrinin, xüsusilə həmin məcəllənin 263.2, 263.3-cü, habelə 263-1.1–263-1.3-cü maddələrinin sanksiyalarına azadlıqdan məhrum etmə cəzası ilə yanaşı digər, yəni azadlığın məhdudlaşdırılması cəzasının da əlavə olunmasını təklif edirik. Eyni zamanda, müvafiq cinayətlərin bəzilərinin ağır nəticələrə səbəb olduqlarını nəzərə alaraq, azadlığın məhdudlaşdırılması cəzasının tətbiq edilmə müddətini yeddi ilədək artırılması daha məqsədəuyğun olardı. Belə yanaşma, məhkəmələrə sözügedən şəxslərə cəza təyini zamanı azadlıqdan məhrum etmə cəzası ilə yanaşı digər və daha məqbul alternativ seçim imkanı verə bilərdi. Düşünürük ki, bu da öz növbəsində, son illərdə ölkədə tətbiqi kifayət qədər yüksək olan müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının, o cümlədən ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə də tətbiqini azalda bilərdi [17, p. 13]. Eyni zamanda, azadlığın məhdudlaşdırılması cəzası ilə əlaqədar qanunvericiliklə müəyyən olunan məhdudiyyətlərin dairəsini bir qədər genişləndirmək və sərtləşdirmək də məqbul olardı**.** Belə ki, müəyyən istisnalar nəzərə alınmaqla, məhkumların üzərinə AR CM-in 52-1-ci maddəsində nəzərdə tutulmuş vəzifələrdən əlavə, istirahət və bayram günləri, işləyənlərə isə, əmək məzuniyyəti müddətində yaşayış yerini umumiyyətlə tərk etməmək, həftədə bir neçə dəfə telefon danışığı vasitəsi ilə cəzanı icra edən orqana olduğu yer barədə məlumat verməklə qeydiyyatdan keçmək, habelə məhkumun azadlığını məhdudlaşdıra bilən digər vəzifələr də qoyula bilərdi. Hesab edirik ki, ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə məhkumlarla azadlıqdan məhrum etmə cəzası əvəzinə digər cəzanın, yəni azadlığın məhdudlaşdırılmasının mümkün tətbiqi, dövlət başçısının cəmiyyətdən təcrid etmə ilə bağlı olmayan alternativ cəza tədbirlərinin tətbiqinin genişləndirilməsi, azadlıqdan məhrum etmənin təyininə qənaətlə yanaşılması, cəzaçəkmə müəssisələrinin yüklənməsinin qarşısının alınması, həmin yerlərdə saxlanılan şəxslərin sayının azaldılması ilə əlaqədar 10 fevral 2017-ci il tarixli sərəncamında verdiyi müvafiq tapşırıqlarla da uyğunluq təşkil edərdi.

Habelə, sözügedən müəssisəyə ümumi rejimli cəzaçəkmə müəssisələrindən keçirilmə əvəzinə, məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsinə üstünlük verilərək, AR CM-in 76-cı maddəsinə dəyişikliklər olunmasını, yəni azad edilmə üçün qanunla çəkilməsi tələb edilən müvafiq müddətin bir qədər azaldılmasını, yaxud həmin məhkumların cəzalarının daha yüngül cəza növü ilə əvəz edilməsi ilə əlaqədar AR CM-in 77-ci maddəsində təsbit edilmiş müvafiq institutun ilk dəfə ağır cinayətlərə görə məhkum edilmiş şəxslərə də tətbiqi məsələsinin nəzərdən keçirilməsini vacib hesab edirik [18, c. 81]. Məntəqə tipli çəzaçəkmə müəssisələrinin ləğvi, azadlıqdan məhrum etmə yerlərinin saxlanmasına ayrılan, o qədər də az olmayan maliyyə vəsaitinə qənaət edilməsinə zəmin yarada bilərdi.

Eyni zamanda, düşünürük ki, alternativ tədbirlər görülmədən məntəqə tipli çəzaçəkmə müəssələrinin, ümumiyyətlə ləğv edilməsi də düzgün olmazdı. Belə olan təqdirdə, bu ilk növbədə, hər il heç də az olmayan sayda ilk dəfə ehtiyatsızlıqdan, xüsusilə yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozulması ilə əlaqədar cinayətlərə görə məhkum olunan şəxslərin, bir qayda olaraq daha ciddi rejim qaydaları ilə fəaliyyət göstərən ümümi rejimli cəzaçəkmə müəssisələrinə göndərilməsi ilə nəticələnə bilərdi. Bu da dövlətimizdə müstəqillik illərində həyata keçirilən humanist cəza siyasəti ilə müəyyən uyğunsuzluq təşkil edir, müvafiq məhkumlara münasibətdə cəzanın icrası qaydalarının şərtləşməsinə, məhkumların sayının, habelə onların saxlanması ilə bağlı ayrılan maliyyə vəsaitinin artmasını şərtləndirərdi.

Verilmiş təkliflərin hər hansı birinin qəbul olunması ilə bağlı Azərbaycan Respublikasının Cinayət və Cəzaların İcrası məcəllələrinə müvafiq dəyişikliklər edilməsi zərurəti yaranacaqdır. Araşdırılan məsələnin həlli ilə bağlı təkliflərimiz ideal olmasa da, onlar fikrimizcə, istər qanunvericiliyin humanistləşdirilməsi, istərsə də maliyyə tutumu baxımından mümkün və daha məqsədəuyğundur. Onu da vurğulamaq istərdik ki, məntəqə tipli çəzaçəkmə müəssisələrində cəzanın icrası qaydalarının təkmilləşdirilməsi, həmin müəssisələrdəki məhkumlara elektron nəzarət vasitələrinin tətbiqinin nəzərdə tutulması ilə bağlı tərəfimizdən əvvəllər təkliflər verilmişdir [19, c. 56, 20, c. 49]. Biz, habelə araşdırılan məsələnin həlli ilə bağlı digər təklif və yanaşmaların mümkün olduğunu da inkar etmirik. Lakin düşünürük ki, onlar Azərbaycan Respublikasında həyata keçirilən cinayət-hüquq və cəza-icra siyasətlərinə, cinayət və cəzaların icrası qanunvericiliklərinin tələb və prinsiplərinə, habelə dövlətin müvafiq dövrdəki maliyyə imkanlarına uyğun olmalı və qısa zamanda həyata keçirilməlidir.

Sonluqda qeyd olunanlarla yanaşı, təhlili aparılan, habelə dövlət başçısının da diqqət yetirdiyi vacib problemin tam həllinə kimi, cəzasının çəkilməsi məntəqə tipli çəzaçəkmə müəssisələrində təyin edilmiş, əmək qabiliyyətli məhkumların Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə "Böyük Qayıdışa dair Dövlət Proqramı"nın icrasına, yəni ölkənin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa və quruculuq işlərinə cəlb edilməsi məsələsinin də nəzərdən keçirilməsi məqsədəuyğun olardı.

**Ədəbiyyat siyahısı**

1. Hümbətov Musa. Azadlıqdan məhrum edilmiş şəxslərin təsnifatı və onun təkmilləşdirilməsi // "Qloballaşan cəmiyyətdə hüquq elminin aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları. Bakı Dövlət Univertsitetinin nəşriyyatı. Bakı, 2008, Səh. 79–81.

2. МВД России: энциклопедия /под редакцией В.Р. Некрасова. Москва, «ОЛМА–Пресс», 2002. 629с.

3. Уголовно-исполнительное право. Учебник в 2 т. Т. 2. Особенная часть / Под общ. ред. Ю.И.

Калинина. М., Рязань, «Логос». Академия права и управления ФСИН России, 2006. 600 с.

4. Ворощук В.Б. Николаев В.И. Роль колоний-поселений в истории отечественной пенитенциарной системы // «Право и государство: теория и практика», 2022. № 4, С. 201–204.

5. Hümbətov M.H. Azərbaycan Respublikasında azadlıqdan məhrum edilmiş şəxslərin xarici aləmlə əlaqələri, onların inkişaf perspektivləri // Slovak international scientific journal. 2025. № 94, pp. 62–69.

6. Н.С. Артемьев, А.М. Розуван, А.В. Семено. История развития института колоний-поселений и их роль в реформировании уголовно-исполнительной системы // Вектор науки ТГУ. 2014. № 2 (28). С. 55–57.

7. Гумбатов М.Г. Создание новых пенитенциарных учреждений в Карабахской и Восточно–Зангезурской экономических районах Азербайджанской Республики, как возможность эффективной реализации прав и свобод заключенных под стражу и осужденных проживающих на этих территориях // Уголовно-исполнительная система на современном этапе с учетом реализации концепции развития уголовно-исполнительной системы Российской Федерации на период до 2030 года. Сборник тезисов выступлений и докладов участников Международной научно-практической конференции по проблемам исполнения уголовных наказаний. Рязань, Академия ФСИН России, 2022. Том 1. Материалы пленарного заседания. С. 324–327.

8. Musa Hümbətov. Cəza və onun icrası. "Hüquq ədəbiyyatı" nəşriyyatı, Bakı, 1999, 208 s.

9. Гумбатов М.Г. Результаты реформирования пенитенциарной системы Азербайджанской Республики в 2000–2015 гг. и перспективы дальнейшего развития. // Уголовно-исполнительное право, Академия ФСИН России, 2016. № 4, С. 5–7.

10. https://justice.gov.az/az/news/konstitusiya-ve-suverenlik-ili-munasibetile-elan-edilmis-amnis-tiya-aktı-22935-sexse-samil-edilib.

11. Hümbətov M.H. Azərbaycan Respublikasında 2011–2025-ci illərdə amnistiya və əfvetmə institutlarının tətbiqi və onların xüsusiyyətləri // Journal of sciense, Lyon. France. 2026. № 74, pp. 32–41.

12. https://ombudsman.az/az/pages/12.

13. Humbatov Musa. Continued reform of the penitentiary system of the Republic of Azerbaijan in 2016–2022, prospects of its development // Czech Republic. Journal Scienific discussion. 2023. V.1 (77), pp. 35–42.

14. Hümbətov M.H. Azərbaycan Respublikasında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə cinayət cəzalarının təyin edilməsinin və onların cəzalarının icrasının xüsusiyyətləri // International independent scientific journal. 2025. № 75, pp. 7–15.

15. https://azertag.az/xeber/4075499.

16. https://www.gazeta.uz/ru/2020/12/29/court-reform/.

17. Гумбатов М. Г. Замена не отбытой части наказания более мягким видом наказания в Азербайджанской Республике // VI Международный пенитенциарный форум «Преступление, наказание, исправление». Сборник тезисов выступлений и докладов участников. г. Рязань, Академия ФСИН России, 2023. Том 1. Материалы пленарного заседания. С. 75–82.

18. Humbatov Musa. Reasons for the growth in the number of persons deprived of freedom in the Republic of Azerbaijan and possible ways to reduce it // Journal Annali d'Italia. 2024. № 56, С. 12–24.

19. Гумбатов М. Г. Применения электронных средств контроля за исполнением наказания в Азербайджанской Республике // Уголовно-исполнительная система на современном этапе и перспективы ее развития. Сборник тезисов выступлений и докладов участников Международной научной конференции. Академия ФСИН России, Рязань, 2020. Том 1, С. 52–57.

20. Уголовно-исполнительное право Российской Федерации и Азербайджанской Республики. Общая часть. Учебник для бакалавриата и специалитета. / Под ред. А.П. Скибы и М.Г. Гумбатова. Рязань, Академия ФСИН России, 2023. 342 с.